**Azərbaycanın hərb tarixinə əsrlər boyu igid oğulların, qorxmaz sərkərdələrin adları ilə həkk olunub. Əfşarların, Qacarların, Şıxlinskilərin tarixi qəhrəmanlıq səhifələri arasında Kəngərlilər - Naxçıvanskilər nəslinin izi də parlaq şəkildə görünür. Bu nəsil torpaq, Vətən, azadlıq uğrunda öz taleyini hərb meydanına bağlayan igidlərin ocağı olub. Onların sırasında ən sonuncu general, xan nəslindən çıxan Cəmşid Naxçıvanski adını tarixə qızıl hərflərlə yazdırdı. Uşaq yaşlarından nizam-intizam, hərbi peşəkarlıq və fədakarlıq onun qanına hopmuşdu. Cəmşid bəy yunker məktəbindən başlayaraq sıravi əsgər rütbəsindən ən yüksək sərkərdə pilləsinə qədər ucaldı. Bu yolun hər addımı döyüş meydanlarında sınanmış igidlik, əyilməz iradə və Vətən eşqi ilə yoğrulmuşdu. O, babalarının və atasının şanlı döyüş yolunu daha da ucaldaraq milli hərb tariximizdə əbədi iz qoydu.**



# Yenilməz döyüş ruhunun təcəssümü

9 avqust 1895-ci ildə Naxçıvanda dünyaya göz açan Cəmşid bəy hələ gəncliyindən mübarizə ruhunu həyatının əsas amalına çevirdi. 26 avqust 1938-ci ildə isə Moskvada, bolşevik zindanlarının qaranlıq divarları arasında güllələnərək həyata vida etdi. Elə bil taleyin qələmi avqust ayını onun ömrünün başlanğıcı və sonu üçün bir möhür kimi seçmişdi. Onun hərbi xidmət illəri təkcə Vətən müdafiəsi ilə məhdudlaşmadı. Cəmşid Naxçıvanski Azərbaycanın ilk milli dağatıcı diviziyasına rəhbərlik edərək əsgərlərinə həm döyüş sənətini, həm də milli ruhu aşılayırdı.

Kəngərlilər nəslinin məşhur nümayəndəsi, Cümhuriyyət ordusunun alay, Sovet ordusunun diviziya komandiri Cəmşid Naxçıvanski dünyaya göz açanda onun taleyinə elə bil döyüş meydanlarının səsi, at çaparaq irəliləyən süvarilərin nərə çəkən nəfəsi yazılmışdı. Xan nəslinin oğlu, general-mayor II Kalbalı xanın nəvəsi, Cəfərqulu xanın ailəsində doğulan bu uşaq zamanla xalqının şərəfli tarixinə çevriləcək bir ömür yaşadı. Qardaşları - III Ehsan xan, III Kalbalı xan, Davud xan, Teymur xan, bacısı Nazlı xanım ilə birlikdə böyüdüyü ailə mühitində sadiqlik, etibarlılıq, şərəf anlayışları körpə yaşlarından onun ruhuna hopmuşdu. O dövrdə hərb sənəti seçilmişlərə məxsus bir missiya idi. Zamanın adət-ənənəsinə görə, bu yola zadəgan ailələrinin övladları çıxırdı. Çünki onlarda vətənə sədaqət, əmrə itaət, məsuliyyət hissi ən ali dəyərlər səviyyəsində idi. Cəmşid bəy də həmin irsin daşıyıcısı olaraq hərb elminin incəliklərinə dərindən yiyələndi. Əvvəlcə yeddi illik Tiflis kadet məktəbini başa vurdu, 1915-ci ildə isə uzaq Yelizavetqradda (Qərbi Ukrayna) qvardiya məktəbinə daxil oldu. Bu məktəbin divarları içində onun iradəsi daha da möhkəmləndi, əsgər kimi bərkidi.

Birinci Dünya müharibəsi başlayanda gənc zabit artıq döyüş meydanına atıldı. Müsəlman süvari eskadronuna rəhbərlik edən Cəmşid bəy "Brusilov cəbhəsi"ndə igidlik nümunələri göstərərək döyüşün taleyini dəyişən əməliyyatlarda iştirak etdi. Onun hərbi peşəkarlığı nəticəsində düşmənin müdafiə xətti yarıldı və bu, ona 4-cü dərəcəli "Müqəddəs Georgi" ordenini qazandırdı. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralandı, amma geri çəkilmədi. Qəhrəman süvari zabiti olaraq gümüş silahla mükafatlandırıldı, 2-ci, 3-cü, 4-cü dərəcəli Anna, həmçinin 2-ci dərəcəli Stanislav ordenləri ilə təltif olundu.

1917-ci ilin qızğın günlərində Rusiyada baş verən inqilablar ordunu da sarsıtdı, Cənub-Qərb cəbhəsi dağıldı. Cəmşid bəy bu qarışıq dövrdə doğma yurda döndü. Vətənpərvər zabit dərhal milli mübarizəyə qoşuldu. Onun komandirlik etdiyi alay Gəncədə yerləşdirildi və milli qoşun hissələrindən ibarət korpusa daxil edildi. Həmin ilin yazında Kürdəmirdə baş verən ağır döyüşlərdə, sonra isə türk qardaşlarımızla birlikdə Bakının erməni-bolşevik qüvvələrindən azad edilməsində onun əsgərləri ön xəttə atıldılar. Qılıncın parıltısı, atların nallarının cingiltisi arasında Cəmşid Naxçıvanskinin əmrləri ildırım sürəti ilə icra olunurdu. Bu mübarizənin qürurlu səhifələrindən birində o, şəxsi xatirəsində belə yazırdı: "Bakı Kommunasının əsgərləri geri çəkiləndən sonra şəhərə ingilislər və Sentrokaspinin qoşunları daxil oldular. Mənim alayım ingilislərlə döyüşürdü. Hətta o vaxt iki şotland rotasını əsir aldım". Milli qürurun, Vətən sevgisinin, düşmən qarşısında əyilməyən iradənin qələbəsi ilə Cəmşid bəy sübut etdi ki, əsl sərkərdə döyüş meydanında ön sırada gedən, qələbə yolunu öz əlləri ilə açandır.


ОРДЕР № 3191
мая 20 дня 1938 г.
Главного
...ения Государственной Безопасности НКВД
на производство
Ареста и обыска
Нахичеванского
Джамшида Джафаровича
...родного Комиссара Внутренних Дел СССР
...к Второго Отдела ГУГБ

1920-ci ilin yazında da Azərbaycan Xalq Cümhuriyyəti artıq ağır sınaqlar qarşısında dayanmışdı. Hər tərəfdən basqılar, daxildə üsyanlar, xaricdən təzyiqlər ölkənin taleyini təhlükə altına alırdı. Belə bir zamanda hərb naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 24 mart tarixli əmri ilə 1-ci süvari tatar alayının komandiri, podpolkovnik Cəmşid Naxçıvanski 2-ci Qarabağ süvari alayına rəhbər təyin olundu. Həmin vaxt Şuşada və bütün Qarabağda daşnak silahlı dəstələri, içəridəki xəyanət şəbəkələri xalqın rahatlığını pozurdu. Gənc, amma artıq sərkərdəlikdə püxtələşmiş Cəmşid bəy bu təhlükələrin qarşısında sipər oldu. Əsgəran qalasının azad edilməsi əməliyyatı onun adını igidlik rəmzinə çevirdi. Cümhuriyyət ordusunda xidmət etdiyi bütün illər ərzində Cəmşid Naxçıvanski milli qoşun hissələrinin yaradılmasına, necə deyərlər, ürəyini qoydu. Təcrübəsini, biliyini, döyüşdə qazandığı ustalığı əsgərlərinə ötürdü. Onun rəhbərliyi altında yetişən hər bir döyüşçü təkcə silah işlətməyi deyil, həm də Vətənə sədaqətin mənasını öyrənirdi.

1920-ci il aprelin 28-də bolşeviklər Azərbaycanı işğal etdikdən sonra onun hər addımı nəzarət altında saxlanıldı. O dövrdə çoxları mühacirətə üz tutdu, amma Cəmşid bəy bu yolu seçmədi. Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun təklifini qəbul edərək Vətəndə qaldı. Onun üçün torpağından ayrılmaq, Naxçıvanın havasından, Azərbaycanın ruhundan uzaq düşmək ölümə bərabər idi. O, hərbi fəaliyyətini yenə də ölkəsində davam etdirdi. Məktəb rəisinin köməkçisi, milli dağatıcı diviziyasının komandiri vəzifələrində çalışaraq hərbi kadrların yetişməsinə böyük zəhmət sərf etdi. Taktiki biliklərini, döyüş təcrübəsini gənc zabitlərə öyrədərək gələcəyin ordusunu formalaşdırdı. Bu illərdə böyük sərkərdələr - Səməd bəy Mehmandarov və Əlağa Şıxlinskinin məsləhətləri onun ustalığını daha da artırdı. Onların dəstəyi ilə milli dağatıcı diviziya Zaqafqaziya ordusunun taktiki-təlim məşqlərində birinci yer tutaraq tarixə qızıl hərflərlə yazılan bir uğura imza atdı.

Cəmşid Naxçıvanski üç müxtəlif quruluşda - imperiya ordusunda, Cümhuriyyət qoşunlarında və sovet hərbi sistemində xidmət göstərdi. Hər dövrdə mərdliyi, sədaqəti, döyüş qabiliyyəti ilə seçildi. Qazandığı hərbi ordenlər və mükafatlar onun peşəkarlığının və vətənpərvərliyinin təsdiqi idi. Azərbaycanın milli diviziyasının yaradıcısı olan istedadlı sərkərdə "Qırmızı Bayraq", "Qırmızı Əmək Bayrağı" və "Qırmızı Ulduz" ordenləri ilə təltif olundu.

Cümhuriyyətin şanlı süvarisi Cəmşid Naxçıvanski üçün taleyin sınaqları hələ bitməmişdi. Azərbaycanın azadlıq səhifələri zorla çevrilib bolşeviklərin qara mürəkkəbi ilə yazılarkən, yeni hakimiyyətin revanşist xisləti Vətənə sədaqətlə xidmət edənlərin qəniminə çevrildi. Qırmızı terrorun kölgəsini hər addım izləyirdi. Onun hərbi istedadı və zəngin döyüş təcrübəsi isə hətta düşmənlərinin də diqqətindən yayınmadı. Moskvaya - M.V.Frunze adına Hərbi Akademiyaya dinləyici kimi göndərildi. Kursu uğurla bitirdikdən sonra orada müəllim kimi fəaliyyət göstərdi. Çünki Cəmşid bəyin taktiki düşüncəsi, əməliyyat planlaşdırma qabiliyyəti, gənc zabitləri döyüşə hazırlama məharəti yüksək qiymətləndirilirdi. Əvvəlcə kurs rəisi, daha sonra isə ümumi taktika kafedrasının müdiri vəzifələrinə təyin olunması bunun bariz nümunəsi idi. Ona general-mayor rütbəsi verildi - bu, onun illərlə qazandığı hərbi nüfuzun rəsmi təsdiqi idi.

Lakin qırmızı terror heç bir rütbəni, ordeni tanımırdı. Azərbaycanın istiqlal dövründə millətə xidmət etmiş hər kəs üçün 1930-cu illərin repressiyaları ölüm hökmünə bərabər idi. Cəmşid Naxçıvanski də bu qanlı təqib dalğasından qaça bilmədi. Dəfələrlə həbs olunan sərkərdə 1938-ci ilin mayında, cəmi 43 yaşında Lefortovo zindanına atıldı. Orada keçirdiyi günlər sadəcə fiziki işgəncə ilə yox, həm də mənəvi sınaqla dolu idi. Ancaq onun iradəsi qırılmadı. Əsir düşmüş bədənində döyüş meydanlarının yenilməz ruhu yaşayırdı. 26 avqust 1938-ci ildə qapalı hərbi məhkəmənin hökmü ilə Cəmşid Naxçıvanskinin həyatına güllələnmə ilə son qoyuldu. Onilliklər sonra, ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyev qırmızı terrorun qurbanı olmuş bu xalq qəhrəmanını yenidən tarix səhnəsinə qaytardı. Onun adını daşıyan hərbi məktəb yaradıldı. Bu məktəb, əslində, Cəmşid Naxçıvanskinin yarımçıq qalmış missiyasının davamı idi - gənc zabitləri Vətən yolunda döyüşə hazırlamaq, milli ordu ruhunu yaşatmaq.

2015-ci ildə Prezident İlham Əliyev bu böyük sərkərdənin 120 illiyi ilə bağlı imzaladığı sərəncamda onun həyat yolunu yüksək dəyərləndirdi. Sənəddə Naxçıvanskinin hərbi istedadı, müstəqillik uğrunda mübarizələrdə göstərdiyi qəhrəmanlıqlar və ölkədə hərbçi kadrlarının yetişməsindəki əvəzsiz xidmətləri xüsusi vurğulandı. Ölkə başçısı Cəmşid bəy haqqında qeyd etmişdir ki, o bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir.

**Nurlan ABDALOV,**
**"Respublika".**